# ÖLÜMÜN PUBLİSİSTİK ANLAMI

XX əsrin özünəxas olan ölüm anlamı var... Baxmayaraq ki, ölüm əbədi anlamdır. Olumun arxasınca onu izləyən bir sonluqdur. Və yeni olum elə özündən əvvəlki ölümdən başlayır.

Mütəfəkkirləri, filosofları, bir sözlə, böyük fikir sahiblərini, şairləri, yazıçıları, eyni zamanda bütün fatehləri və cahangirləri ölüm həmişə düşündürüb. Mifaloji anlamda insan ölümlə dəfələrlə cəngə çıxıb. Bilqamıs ölümlə çarpışıb. Homerdə, Dədə Qorqudda, dünya mənəvi irsinin ən qədim nümunələrində belə, ölümə qarşı mübarizə var, ölümə qalib gəlmək istəyi var.

Zərdüşt əbədi yaşamaq istəyirdi. Dirilik yolunu axtarırdı. Əlbəttə, Zərdüşt cismən yaşaya bilmədi. Ancaq onun əbədiyaşarlığı özünün əsasını qoyduğu, yaratdığı "Avesta" ilə əbədiyyətinə qovuşdu. Bütün bunların hamısı ölüm və olum arasındakı ziddiyyətin tarixi, mənəvi köklərinə diqqəti cəlb etmək, düşüncəni istiqamətləndirmək mahiyyəti daşıyır. Və heç də o iddiada deyilik ki, bunlar bəşər düşüncəsi üçün yeni yarpaqlardır.

Yuxarıda qeyd etdiyimiz kimi XX əsrin özünə xas ölüm anlamları bir neçə mərhələdən keçib: Əsrin əvvəlindəki erməni-müsəlman davası. Əslində bu ermənilərin köklü, əsilli türklərə qarşı haqsız savaşları idi. 1918-1920-ci illər bu da cümhuriyyət uğrunda azad, müstəqil dövlət qurmaq yolunda çarpışan insanların savaşı, uğuru idi. Və bu dövrdə də ölüm olumu boğazlamaq istəyində idi. 1920-1940-cı illər - sovet hakimiyyətinin özünütəsdiq etmə zamanı müqavimətə qarşı tətbiq etdiyi ən asan üsul - ölüm cəzası. Bu dövür repressiyalar, qəddarlıqlar, haqlı-haqsız sürgünlər zamanı idi. Növbəti mərhələ İkinci Dünya savaşıydı. Yeddi yüz min azərbaycanlı bu savaşa qatıldı. 350 min nəfərdən çox azərbaycanlı canını qurban verdi. Axır ki, faşizim öz yuvasında ilanın başı əzilən kimi əzildi. Nisbətən sakit dövr, quruculuq zamanı gəldi və dünyanın axarı göstərdi ki, bu sakitlik uzun sürə bilməzdi. Axır ki, həmin nisbi sakitliyin içərisində yeni insanın tarixi yaddaşa qayıdış mərhələsi başladı. Və bu da təsadüf elədi XX əsrin son on illiyinə.

Çoxları elə düşünür ki, nəhəng sovet imperiyasını Qarabağ problemi və buna bənzər etnik savaşlar süquta uğratdı. Ancaq mənim zənnimcə belə deyil. Artıq dünya iki cəbhədə soyuq müharibəni aparmaq iqtidarında deyildi. Və bundan artıq imtina etməli idi. Sovet imperiyasının öz içərisində dünyanın bu tələbinə uyğun hərəkət istəyi formalaşmaqda idi. Ayrı-ayrı bölgələrdə, başqa sözlə, ayrı-ayrı respublikalarda yaranmış vəziyyətdən istifadə edərək qaynayan, mərkəzdənqaçma meyilləri sadəcə, prosesi sürətləndirdi. Mövcud vəziyyətdən yararlanmaq vəziyyətində olan Azərbaycan da öz istiqlalına daha tez qovuşmaq istəyirdi. Və bu istək meydanlardakı - mərkəzdə və bölgələrdə hərəkatlarla müşayət olunurdu.

Ancaq bu o demək deyildi ki, mərkəzi hakimiyyət imperiyanın dağılmasına tam hazır idi. Xeyr. İmperiya hələ ki, öz içindəki müəyyən qüvvələrin təsiri ilə inad göstərmək niyyətindən əl çəkmək istəmirdi.

Azərbaycanda 20 Yanvar hadisələri bu istəyin - mənfi və müsbət qüvvələrin - əks cəbhələrin toqquşması nəticəsində baş vermişdi.

Artıq bu barədə çox demişik, yazmışıq... hələ də yazdıqlarımızı son nöqtə hesab etməyə haqqımız yoxdur. Çünki həmin hadisələrin ağrılı yekunu olaraq, baxmayaraq ki, müstəqilliyimizi əldə etmişik, ancaq Qarabağ hələ də işğal altındadır.

Bir sözlə, yazılan, deyilən... ağrını yaddaşa köçürən ədəbi düşüncə materialı bu gün qədərindən çox olmasa da heç az da deyil.

Məmməd Aslanın "Ağla, qərənfil, ağla" şeiri, Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması və nəhayət yazıçı Rafiq Səməndərin sənədli-publisistik hekayələr kitabı isti-isti, mənəviyyatda, düşüncədə, qanın buğlandığı bir zamanda yazılan əsərlər kimi diqqəti cəlb elədi. Və bu yerdə bir daha xatırlatmaq olar ki, ədəbi estetik dəyərinə görə yazıçı-publisist Şəfəq Nasirin də qələmə aldığı "Taleyin acı üzü" povesti, "Şəhid Bakı, şahid Bakı", "Yiyəsiz palto" təəssürat hekayələri məhz həmin günlərin öz rəngi ilə yazılmış əsərlər idi.

Şəfəq Nasir baş verənləri öz zamanında görmək, hadisələrin içərisində olmaq baxımından ağrılı bir bəxtin sahibidir. Çünki, o dövrün nəbzi məhz ziyalıların nəbzi ilə döyünürdü. Və o ziyallılardan biri də elə Şəfəq Nasirin özü idi. Həmin dövrdə o, "Gənclik" nəşriyyatında redaktor vəzifəsində işləyirdi. İndiki nəşriyyat və redaktorluq missiyalarından fərqli bir missiya sahibi idi. Nəinki hər yazıya, hər kitaba, hər cümləyə, hər ifadəyə görə məsuliyyət daşıyan şəxsdən izahat tələb olunurdu.

Zaman qan-qan deyirdi. Və belə bir zamanda hələ 20 Yanvar şəhidlərinin qanı insanların mənəvi mühitində buğlandığı zamanda o, Rafiq Səməndərin həqiqi vətəndaşlıq fədakarlığı ilə yazılıb, araya-ərsəyə gəlmiş "Şəhidlər" kitabını redaktə etməli olur.

Və "Yaddaşın harayı" adlı ədəbi düşüncələr qeydləri də elə bu zərurətdən yaranır. İnsafən, müəllif üçün asan olmayan tərəflər çoxdur. Çünki o, gördüyü, şahidi olduğu hadisələrlə artıq yazıda təzədən qarşılaşır: "Şəhidlərin sinə dağlayan dərdləriylə elə dolmuşam ki, özümə bu gen dünyada - günəş altında yer tapa bilmirəm... Heç inana bilməzdim ki, bizim taleyimizdə belə bir kitab yaranacaq. Gözümüz ona sataşanda qaranın qara vahiməsi bizi basacaq, qırmızının sınıq-sökük görkəmi - qanı ürəyimizin başını göynədəcək... inanmazdım". Bu yerdə bu qeydlərin, bu cümlələrin sahibinə oxucu yox, tarix özü yarıciddi-yarıironik belə bir cavab verə bilər: "Sən inanmırsan inanma" bu artıq tarixi bir həqiqətdir. Və inanmamağınla heç nəyi dəyişə bilməzsən. Şübhəsiz, Şəfəq Nasirin yazı müəllifi olaraq "İnanmazdım" inkarı ritoriuk mahiyyət daşıyır. Artıq o həmin hadisələri görüb və onun şahidi olub. Nəhayət, nəşriyyat redaktoru olaraq, kitabı əlyazma halında vərəqlədikcə razılaşır ki, yazı həqiqətin əks-sədasıdır. Əgər yazı varsa, onu salnamə tariximizin səhifəsindən silmək olmaz.

Bu yerdə onu da demək yerinə düşər ki, Rafiq Səməndər yazıçı-jurnalist kimi həmin kitabı ilə geniş oxucu auditoriyasına çıxdı. Çünki o dövrdə az qala nə qədər müddət ərzində insanlar şokda idi. Hadisələrə necə reaksiya verməyin yolunu ancaq mitinqlərdə görürdülər. Yalnız Rafiq Səməndər həmin dövrdə çıxış nöqtəsini məhz yazıda gördü və yazı ilə geniş düşüncəyə yol açdı.

Şəfəq Nasirin hadisələrin şahidi və kitabın redaktoru kimi bu gün yazdıqları göstərir ki, Rafiq Səməndər həmin dövrdə bütün mənəvi məsuliyyəti, vətəndaşlıq yanğısı ilə xalqın bağrında açılmış yaraları öz gözləri ilə görüb. Və elə Şəfəq Nasirin təbirincə desək, ürəyinin qanı ilə, damarlarında gəzən odun, közün gücüylə yazıb.

Şəfəq Nasir əlində olan "Şəhidlər" kitabının əlyazması haqqında bir neçə kəlməlik təəssürat yaza bilərdi. Ancaq o ruhundan varlığından gələn səsin, sədanın təsiri altında özünü sonsuz suallar qarşısında qoyur. Bu ritorik suallar göstərir ki, ədəbi matreala tənqidçi gözü ilə baxmaqdan çox bir azərbaycanlı, milli varlığın təəssübkeşi kimi yanaşır. Müəllif hansı yanğı ilə 20 Yanvar hadisələrinin qurbanlarını obrazlaşdırırsa, o da həmin yanğı ilə, həmin hadisələrin əks-sədası olan kitabı obrazlaşdırmağa çalışır.




Başqa sözlə, onun məqsədi əsər haqqında ədəbi-tənqidi fikir söyləmək yox, həmin əsərlə bağlı ruhundan, varlığından gələn səsi ifadə etmək olub: "Rafiq Səməndər bu kitabı necə yazıb? Yarımçıq taleləri necə düzüb-qoşub? Bütövlükdə, insanı özündən, öz dünyasından alıb aparan o yanıqlı ağıları necə yaradıb? Mən bu sirri "Şəhidlər" kitabının əlyazmasını oxuyub başa çatandan sonra anladım. Dərk elədim ki, İlahi bu cəfakeş insana indiyəcən görülməyən, duyulmayan təpərin, dözümün, iradənin, əqidənin, əsəbin, istedadın birgə odundan doğulmuş bir qığılcım əta eləmişdi. Burdan belə bir sual yarana bilər: məgər, bütün bunlar başqa bir şəxsə verilə bilməzdimi? Niyə məhz ona verilib? Çünki, bu istəkmi deyim, inadmı, yanğımı deyim, Rafiqin canında necə bir böyüklükdə, necə bir heyrətamizlikdə doğulubmuş ki, Tanrı da bilib o nadir qığılcımı kimə bəxş eləsin. Yazmasa, deməsə, düzüb-qoşmasa içindən yanardı, yeyilibtökülərdi, əriyib-qurtarardı Rafiq Səməndər...". Təkcə elə bu cümlələrin axarı ritorik sualların çağrışı göstərir ki, Şəfəq əlyazmanı oxuduqca müəlliflə - Rafiq Səməndərlə birgə şəhid evlərini gəzir. Bu evlərin artıq qara paltarda olan sakinləri ilə üz-üzə gəlir. Onların yaşadıqları ağrıları, dərdləri onlarla birgə yaşayır. Və bu yerdə Şəfəq Nasirin bu hisslərinə, həyəcanlarına ədəbi-tənqidi ölçülərdən kənara çıxdığına görə irad tuta bilmirik. Bircə yol qalır: onunla həmrək olmaq. Onun düşüncələrinə zamanın fonunda haqq qazandırmaq. Çünki həmin dövrdə hər kəs müqavimət hərəkatının iştirakçısı idi. Biri yazı ilə, digəri həmin yazıya münasibətilə. Biri özünü ölümə verirdi, digəri həmin öləni başının üstünə qaldırıb bayraq əvəzi tuturdu... və demək, Şəfəq Nasir də yaratdığı ədəbi-bədii əsərləri ilə eyni zamanda, elə bu tipli yazılara münasibəti ilə müqavimət hərəkatının mübarizi idi.

Şəfəq Nasir yəqin ki, öz vəzifəsinə uyğun olaraq o dövrdə çoxlu kitabların redaktoru olub. Ancaq məhz "Şəhidlər" kitabını redaktə etməyin ona qismət olmasına da qədərin işi kimi baxır. Ancaq unudur ki, bu cür qədər tale işləri hər kəsin təbiətinə uyğun olaraq, qanunauyğunluqa gəlib onu tapır. Şəfəq Nasirin bu məqamdakı təəssüratları nə qədər təsirlidir: "Taleyinmi, qismətinmi işidi, bilmirəm, "Şəhidlər" kitabının əlyazmasını redaktə eləmək mənə nəsib oldu. Taleləri yazılmış o adları daşıyan insanların şəkillərini görüncə yadıma xiyabandakı dəfn mərasimi düşdü. Gözlərimin önünə şəhidlərin məzar evinəcən küçələr boyu səpilmiş qıpqırmızı qərənfillər gəlirdi. Mən bu yazıları - redaktəni iki həftə müddətində evdə işləməli oldum. Özü də hərdən böyük, hərdən də qısa fasilələrlə. Fasilələrin yaranması təbii idi, boğulurdum, bir taleyi başa çatanacan nəfəsim kəsilirdi, təngiyirdim. İnanın, hər dəfə iş otağıma girib-çıxanda elə bilirdim ki, məzar evinə girib-çıxıram. Dirigözlü, çırpınan ürəknən məzar evinə girmək necə bir ölçüyəgəlməz zillətdisə, ordan da eləcə çıxmaq ağıla, başa yerləşməyən işdi, hərəkətdi. İş otağımla məzar evinin qapıları arasında iki həftə gündə neçə kərə çabaladım...". Bəlkə də dünyanın çox az qismdə redaktorlarına qismət olub ki, hadisələrin qaynarlığı içərisində həyəcanların od tutub yandığı bir zamanda həmin hissləri sözə gətirən materialı redaktə eləsin.

Bəlkə də bu redaktor xoşbəxtliyidir. Çünki sülh zamanının insanları pasionallıq haqqında heç düşünmürlər də, bu mənada sülh zamanlarının redaktorları ilə ölüm və qan zamanının redaktorları arasında fərq var. Özü də çox böyük fərq var. Məhz ölüm və qan içində yazan adamları biz döyüşün iştirakçısı kimi qəbul etməliyik. O cümlədən, ölüm və qan iyi gələn və zamanın od və tüstü içindəki mühiti yazıya gətirmiş olanların sözünü redaktə edən redaktoirları da.

İndi özünüz müqayisə aparın. Görün redaktor və müəllüf bir-birinə nə qədər yaxındır, doğmadır: "Ürəyimdən keçdi ki, gör indi bu yazıları düzüb-qoşan Rafiq nələr çəkirmiş... və həmin anlarda onun halına acıdım. Gecələri səssiz-ünsüz yazı masasına çəkilərək, bir Allah bilir necə göynəyə-göynəyə, için-için ağlayaraq işləyirmiş. Həmin günlər qəddinə sarılı, dərdinə bükülü gəzirdi. O vaxtlar onun ayaq üstə şəhid nəfəsinə, şəhid addımlarına heyrət edirdim. Bütün şəhidlərin ətri gəlirdi ondan. Açığı, elə bilirdim ki, o halında şəhid talelərini yazdığı kitabın boy göstərəcəyinə səbri, ürəyi davam gətirməyəcək. Bu fikirlərimə görə bağışla məni, Rafiq...". Gör nə qədər səmimidir. Müəllifin bu düşüncələri ən sərt ədəbi mövqeli tənqidçiyə də humanist hisslər aşılayır. Yəni ki, biz bəzən ədəbi əsərin sərtləşmiş kriteriyalarını oxucu istəklərinə cavab verən əndazəyə qurban verməyi də bacarmalıyıq. Şəfəq Nasirin kitabdan nümunə üçün qismən təhlilə cəlb etdiyi bir hekayə var. "Boş qəbir"... Bu hekayə haqqında onun mülahizələrini oxucularla üz-üzə qoymağa dəyər: "Bu yazı məni yaman tutdu, günü bu günəcən də bir dərya fikir, bir umman həyat - dərin mənayla dolu olan bu yazıdan sonra da özümə gələ bilmirəm, inanmıram ki, onun təsirindən qurtara bilim.

*(Davamı var)*